## HISTORIOGRAPHY OF US POLICY IN THE LATIN AMERICAN REGION IN THE 60S OF THE XX CENTURY

***Bakhtiyarlı Huseyn***

***Summary***

The article examines the historiography of US economic and political intervention in the region. It was noted that national and foreign historians have provided sufficient information in their works on the US intervention. It is clear from these reports that the US intervention in the region has created very serious problems. One of these problems was the Caribbean crisis. It is known that the Caribbean crisis was resolved through the mediation of the UN Secretary General.

***Rəyçi: dosent Etibar Musayev***
***Ümumi tarix kafedrasının 10 iyun 2022-ci il tarixli iclasın 05 saylı protokolu***
***Daxil olma tarixi 14 oktyabr 2022-ci il***

**UOT: 9(4794)**

## AZƏRBAYCAN TARİXİNDƏ ZƏRDÜŞTİLİK DİNİNİN MÖVQEYİ

***Əhmədova Türkan Yusif qızı, Rzayeva Tamilla Zahir qızı***
***Azərbaycan Dövlət Aqrar Universiteti***
***Sevda.abdullayeva.1986@mail.ru***

**Xülasə:** *Azərbaycanda tarixin müxtəlif dövrlərində müxtəlif dinlər və inanc sistemləri mövcud olmuşdur. Qədim Azərbaycan dövlətləri olan Atropatena və Albaniya ərazisində yayılmış dinlər arasında zərdüştilik (məcusilik) mühüm yer tuturdu. Bu din onun banisi Zərdüştün adı ilə bağlıdır.*

*Zərdüştilik təkcə Azərbaycanda deyil, İranda, Orta Asiyada, Hindistan və digər ərazilərdə də əsas dinlərdən birinə çevrilmişdir. Zərdüştilik və onunla əlaqəli dini-fəlsəfi sistemlər digər dinlərə də öz təsirini göstərmişdir.*

*Zərdüştilik təlimi, bu dinin müqəddəs kitabı olan Avestada öz əksini tapmışdır. Avesta Orta Asiyanın qədim xalqlarının, o cümlədən Azərbaycan xalqının əcdadlarının müqəddəs saydıqları ədəbi abidələrdən və kitablardan biridir. Bu kitabda ölkəmizin qədim əhalisinin dini, əxlaqi, sosial, siyasi və fəlsəfi baxışlarının bir sıra aspektləri bədii şəkildə əks olunub.*

*Azərbaycanda İslam dini yayılana qədər öz əhəmiyyətini qoruyub saxlayan bu dini xalqımızın çoxəsrlik dünyagörüşünün təzahürü adlandırmaq olar. Bu komponentlər adət-ənənələrimizdə, milli bayramlarımızda öz əksini tapıb.*

*Müasir dövrdə zərdüştiliyin nümayəndələrinin sayı çox azdır. Hazırda dünyada bu dinin təxminən 130.000-ə yaxın nümayəndəsi vardır.*

**Açar sözlər:** din, Ahura Mazdah, Anqra Manyu, Avesta, atəşgah.
**Ключевые слова:** религия, Ахура Мазда, Ангра Манью, Авеста, камин
**Keywords:** religion, Ahura Mazda, Angra Manyu, Avesta, fireplace

Azərbaycan xalqının tarixi keçmişi haqqında təsəvvür formalaşdırmaq üçün ulu əcdadlarımızın sitayiş etdiyi qədim dinlərin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Xalqımızın dini inancları qədim tarixi köklərə dayanır. Tarixin müxtəlif dövrlərində

Azərbaycanda müxtəlif dinlər və inanc sistemləri mövcud olmuşdur. Din – insanın hiss üzvləri ilə qavranılmayan gözəgörünməz gerçəkliyi tanıyıb-bilmək tələbatından irəli gələn hadisədir. Bəşər mövcud olduğu andan dinlər də mövcud olmuşdur.

Məlumdur ki, Azərbaycanda tarixən bir sıra dinlər və təriqətlər mövcud olmuşdur. Bu dinlər içərisində ən qədim olan Zərdüştilik (Məcusilik) dinidir. Bu dinin yayılmasına qədər dünyada müxtəlif dinlər mövcud olmuşdur ki, yarandığı bölgənin sərhədlərini aşa bilməyib. Zərdüştilik ilk yarandıqda nəinki mükəmməl din, eyni zamanda əxlaq və mənəviyyat prinsipləri toplusu kimi əhəmiyyətli dini təlimə çevrilmişdir.

Zərdüştilik dini Ahura Mazdahın (zərdüştilərin inandıqları tək tanrı) adı ilə bağlı olaraq Mazdeizm də adlanır. Eyni zamanda İran kökənli bir din olan Zərdüştilik "Məcusilik" (İran topluluğu olan "Məcuş" və ya Məci adlanan rahib qrupunun adıyla əlaqədardır) adıyla da tanınır. Məcusiliyi tarixi inkişaf baxımından dörd dövrə ayırmaq olar:

1. Zərdüştlə başlayan və tək tanrı Mazdaya sitayişin öz plana çıxdığı ilk inanc dövrü.
2. Daranın dövründə başlayan və III yüzilliyin birinci yarısına qədər davam edən dövr.
3. VII yüzilliyə qədər davam edən Sasanilər dövrü.
4. Sasanilər dövlətinin süqutu ilə başalayan və günümüzə qədər davam edən son dövr.

Qədim yunan və orta əsr müsəlman tarixçiləri, həmçinin bir çox sonrakı tədqiqatçılar Azərbaycanı bu dinin Vətəni hesab edirdilər. Tarixi mənbələrdən məlum olur ki, Zərdüştlük Cənubi Azərbaycan ərazisində e.ə. I minilliyin ilk əsrlərində yayılmağa başlamışdır. [5;s.12]

Bir sıra tədqiqatçıların verdiyi bilgilərə əsasən Zərdüştlük dinində dünyagörüşü üçün dualizm qəbul edilmişdir. Zərdüştlər zamanın qaynağı, ilahi varlıq sayılan Zürvanın varlığına inanırdılar. Ahura Mazdah (Hörmüzd) və Anqra Manyunun (Əhrimən) Zürvan tərəfindən yaradılan iki qardaş olduqları irəli sürülürdü. Zərdüşt bütün varlıqlarını Ahura Mazdahdan zühur etdiyinə inanırdı.

Məcusiliyin Ahura Mazda və Anqra Manyu dualizmi Sasanilər dönəmindən sonra ortaya çıxmışdır. Məcusilikdə dünyanın gedişatı yaranışdan qiyamətə doğru dörd bərabər dövrə bölünür. Bu inanca görə dördüncü dövr axır zamana təsadüf edəcək və zamanın sonuna yaxın xilaskar Saoşyant zühur edəcək.

Bu dinin mənsubları öz etiqadlarını "mazdayasna" və ya "vahvi-daena", özlərini isə "behdin" adlandırmışlar. Dinin adı onun yaradıcısı olan Zərdüştün (Zoroastr) adı ilə bağlıdır Zoroastr sözü "gözəl dəvələrə sahib olan" kimi tərcümə edilmişdir. Zərdüştün hansı əsrdə yaşaması dəqiq məlum deyil. Lakin bir sıra tədqiqatçıların məlumatlarına əsasən o, e.ə. VII əsrin ikinci yarısı-VI əsrin əvvəllərində yaşamışdır. Məlumatlara əsasən o Azərbaycanda adlı-sanlı bir ailədə dünyaya gəlmişdir. Fərziyyələrə görə 30 yaşında ona peyğəmbərlik verilmişdir.

Azərbaycanın qədim dövlətlərindən olan Atropatena əhalisinin mənəvi mədəniyyətinin əsasını zərdüştilik dini təşkil edirdi. Atropatena əhalisi oda sitayiş edirdi. Demək olar ki, atəşpərəstliyin mərkəzi Atropatena idi. Təsadüfi deyil ki, atəşpərəstliyin 6 böyük məbədindən 4-ü, o cümlədən baş məbəd – Qazaka məbədi Atropatendə idi. Zərdüştilik qədim dövrdə Ön Asiyanın şərq hissəsinin xalqlarının ideologiyası idi.

Zərdüştiliyin müqəddəs kitabı "Avesta" sayılır. Zərdüştün həyatı haqqında olan məlumatları "Avesta"nın ən qədim hissəsi olan "Qat"lardan əldə etmək mümkündür.

Zərdüştlilik özündə çoxlu sayda mütərəqqi ideyaları sintez edən ilk monoteist çağırışlardan biri olmuşdur. Təsadüfi deyildir ki, "Avesta" sözünün hərfi mənası da "ilk xəbər", "ilk çağırış" demək idi. Zərdüştilik mövcud olan multikultural dəyərləri, plüralist ideyaları və müxtəliflikləri, hətta şərin varlığını belə vahid bir ideya altında birləşdirirdi.

“Avesta” 21 hissədən ibarət olmuşdur. Onun bizə gəlib çatan variantı isə 4 hissədən ibarətdir: 1) Yasna 2) Yastlar 3) Visprat və 4) Videvdat. [7;səh-58]

“Avesta”nın orijinalının e.ə. 330-cu ildə Makedoniyalı İskəndər tərəfindən qədim Persepolda yandırılması haqqında mənbələrdə kifayət qədər məlumat var. Lakin bu gün bu təlimin insanları birliyə çağırması, onun parlaq şəkildə ifadə olunan əsl multikulturallığı, başqa ideyalara münasibətdə tolerantlığı, təriqətçiliyə və mədəni plüralizmə münasibətdə çox yüksək liberalizm ifadə etməsi müzakirə obyektidir. [2;səh-43]

Zərdüştlükdə çoxlu sayda kultlar vardır. Bunlar içərisində “Dadodaheş və Aşudad” kimi kultlar xüsusi əhəmiyyət kəsb edirdi. Bu kultlar insanlar arasında vacib qarşılıqlı köməyi, ehtiyacı olanlara yardımı, insanların birbirilərini qarşılıqlı şəkildə dəstəkləməsini tərənnüm edirdi.

Məcusilikdə müxtəlif dini gün və bayramlar qeyd olunmuşdur. Bu bayramlar içərisində Novruz adlı yeni il bayramı seçilir. Bu bayram təbiətin dirçəlişi şərəfinə Günəş təqviminin ilk ayı olan Fervardinin ilk günündə (21 Mart) keçirilir.

Azərbaycanın ən qədim sakinlərindən sayılan kaspilərin dəfn mərasimləri və onların şəxs adlarında zərdüşti elementlərinin olması hələ Əhəmənilər dövründə (e.ə. 6-4 əsrlər) kaspilər arasında zərdüştiliyin yayılmasını təsdiq edir.

Zərdüştilikdə od müqəddəs sayılır və zərdüşti ibadətgahlarında odu sönməyə qoymurdular. Odun şərəfinə məbədlər ucaldılırdı. Qafqaz Albaniyasında od məbədləri çox zaman “atəşgah” adlanırdı.

Azərbaycan ərazisində olmuş bir çox tədqiqatçılar və səyyahlar burada mövcud olan od məbədləri haqqında məlumatlar vermişlər. Bunlar içərisində Suraxanı məbədləri geniş yer tutur. İngilis səyyahı Hanveyin məlumatlarından görünür ki, hələ XVIII əsrdə Suraxanıda bir neçə qədim od məbədi mövcud idi. Zərdüştilər bu məbədlərdən yalnız birindən istifadə edirdilər.

Odu və torpağı meyitlərlə murdarlamaq olmazdı. Buna görə də cəsədləri yüksəkliklərdəki daşlıq yerlərdə, yaxud belə yerləri xatırladan daxma (sükut qülləsi) adlı daş tikililərdə qoyurdular ki, qurd-quşa yem olsun. Sümüklər də torpağı murdarlamamaqdan ötrü xüsusi yerlərdə saxlanırdı.

Bu dinin əhatə dairəsi yalnız Azərbaycanın tarixi əraziləri və Yaxın Şərqlə məhdudlaşmamış, Qərbə, xüsusilə qədim yunan və hind mədəniyyətinə ciddi təsir göstərmişdir. Tarixi faktlar, eləcə də, bizə gəlib çatmış yunan tarixçi və filosoflarının əsərləri sübut edir ki, zərdüştiliyin müqəddəs kitabı olan Avesta, xüsusilə, bu kitabı yaradan maqlar, onların təlimində və atəşpərəstlik dinində islahat aparmış Zərdüşt yunan mədəniyyətinin inkişafında böyük rol oynayıb. Bəlkə, elə buna görədir ki, ingilis tədqiqatçısı Meri Boys zərdüştiliyin bəşəriyyətə bütün digər etiqad növlərindən daha artıq dərəcədə təsir göstərdiyini iddia edir. [3;səh-51]

Dahi Azərbaycan mütəfəkkiri, şair Nizami Gəncəvi özünəqədərki bütün dini-fəlsəfi təlimlərin mifoloji təsəvvürlərin mahiyyətindən çıxış etməklə, bəşəri əxlaq barədə konsepsual fikirlər irəli sürmüşdür.

Məlumdur ki, Nizami Gəncəvi yaradıcılığından keçən əsas dini-fəlsəfi xətlərdən biri də zərdüştilik olmuşdur. Hətta bir çox İran alimləri bu gün də onu şairin yaradıcılığında aparıcı xətt adlandırmaqda davam edirlər. Həqiqətən də Nizami Gəncəvinin "Xəmsə"sində zərdüştiliyin ictimai-siyasi mahiyyətindən, dini ayinlərindən, əxlaq prinsiplərindən tutmuş - oradakı mifoloji dastanlara qədər əksər məsələlərdən dönə-dönə istifadə olunduğu göz qabağındadır. Yuxarıda qeyd etdiyimiz kimi, əgər Nizami Gəncəvi "Xəmsə"si Allaha və peyğəmbərə müraciətlə başlamasaydı, onu islam dövrü abidəsi olmaqdan çox, XII əsrə

qədərki bütün dinlərin, fəlsəfələrin, mifologiyaların, elmlərin yekun ensiklopediyası adlandırmaq olardı. [6;səh-32]

İslam dininin hakim mövqeyə yüksəldiyi dövrlərdə belə Şimali Azərbaycanda zərdüşti icmalar mövcud olmuşdur. Ərəb coğrafiyaçısı və səyyahı Əbu İshaq İbrahim ibn Məhəmməd əl-İstəxri (850-934) “Məmləkətlərin yolları kitabı”nda yazmışdır ki, Bakı yaxınlığında zərdüştilərin yaşadığı kəndlər mövcuddur. Məşhur coğrafiyaçı və tarixçi Əbül-Fida İsmail Həməvi (1273- 1331) Muğan vilayətində atəşpərəstlərin yaşadığı kəndlərdən bəhs edir.

İslam dininin Azərbaycanda yayılmasına qədər əhəmiyyətini saxlayan bu dini xalqımızın uzun əsrlər ərzində formalaşmış dünyagörüşünün təzahürü adlandıra bilərik. Bu komponentlər adət-ənənələrimizdə, milli bayramlarımızda öz əksini tapmaqdadır.

Zərdüştlük orta əsrlərdən etibarən Azərbaycanda öz əhəmiyyətini itirməyinə baxmayaraq, qədim inancların əlamətləri bu gün də insanların həyat tərzində özünü büruzə verməkdədir. Hazırda zərdüşti icmaların İran və Hindistanda mövcudluğu məlumdur. İranda yaşayan və gəbrlər (gabarlar) kimi tanınan məcusilər kiçik bir qrupdan ibarətdir.

### *Ədəbiyyat*

1. Dini Araşdırmalar Mərkəzi, Azərbaycanda tolerantlıq ənənəsi, Bakı, 2015,160 səh.
2. Hacıyev A.N., Cəfərova E.H., Məmmədov İ.M. Multikulturalizmə giriş:Ali məktəblər üçün dərs vəsaiti. – Bakı, 2018, 372 səh.
3. İsmayılov G. Tolerantlıq: Bildiklərimiz və bilmədiklərimiz, Bakı, 2019, 240 səh.
4. Mustafazadə T. Ümumi tarix, Bakı, 2009, 1152 səh.
5. Mübariz Qurbanlı, Din və siyasət, Bakı, 2019, 114 səh.
6. Nizami və Zərdüştilik. Bakı: Elm və Təhsil, 2012, 98 səh.
7. Rəcəbli Qəzənfər, Azərbaycan tarixi. Bakı, 2013, 544 səh.
8. Yaşayan dünya dinleri, Diyanet İsleri Baskanlığı, 1. Baskı: Şubat 2007.

## ПОЗИЦИЯ ЗОРУЙСКОЙ РЕЛИГИИ В ИСТОРИИ АЗЕРБАЙДЖАНА

***Ахмедова Туркан Юсиф кызы, Рзаева Тамилла Захир кызы***

### *Резюме*

В разные периоды истории в Азербайджане существовали разные религии и системы верований. Зороастризм занимал важное место среди религий, распространенных на территории древних азербайджанских государств Атропатены и Албании. Эта религия связана с именем ее основателя Зороастра.

Зороастризм стал одной из основных религий не только в Азербайджане, но и в Иране, Средней Азии, Индии и других районах. Зороастризм и связанные с ним религиозные и философские системы, несомненно, оказали определенное влияние на иудаизм и христианство.

Учение зороастризма нашло отражение в Авесте. Авеста является одним из литературных памятников и книг, считавшихся священными древними народами Средней Азии, в том числе предками азербайджанского народа. В этой книге художественно отражен ряд аспектов религиозных, нравственных, социальных, политических и философских воззрений древнего населения нашей страны.

Эту религию, сохранявшую свое значение вплоть до распространения ислама в Азербайджане, можно назвать проявлением многовекового мировоззрения нашего народа. Эти составляющие нашли отражение в наших традициях и национальных праздниках.

В современное время количество представителей зороастризма очень мало. В мире их около 130 000.

## POSITION OF THE RELIGION OF ZOROASTRIANISM IN THE HISTORY OF AZERBAIJAN

***Ahmadova Turkan Yusif, Rzaeva Tamilla Zhir***

***Summary***

Different religions and belief systems existed in Azerbaijan in different periods of history. Zoroastrianism (Magianism) occupied an important place among the religions spread on the territory of the ancient Azerbaijani states of Atropatena and Albania. This religion is associated with the name of its founder Zoroaster.

Zoroastrianism has become one of the main religions not only in Azerbaijan, but also in Iran, Central Asia, India and other areas. Zoroastrianism and related religious and philosophical systems undoubtedly had some influence on Judaism and Christianity.

The teaching of Zoroastrianism is reflected in the Avesta. Avesta is one of the literary monuments and books considered sacred by the ancient peoples of Central Asia, including the ancestors of the Azerbaijani people. This book artistically reflects a number of aspects of the religious, moral, social, political and philosophical views of the ancient population of our country.

This religion, which retained its significance until the spread of Islam in Azerbaijan, can be called a manifestation of the centuries-old worldview of our people. These components are reflected in our traditions and national holidays.

In modern times, the number of representatives of Zoroastrianism is very small. There are about 130,000 of them in the world.

***Rəyçi: Dos. S.F.Abdullayeva***
***Protokol №3, 4 noyabr, 2022-ci il***
***Daxil olduJu tarix 01 dekabr 2022-ci il***

**UOT:94(479.24).**

## AZƏRBAYCANLA TÜRKİYƏNİN BÜTÜN SAHƏLƏRDƏ MÜTTƏFİQLİYİNİ RƏSMİLƏŞDİRƏN ŞUŞA BƏYANNAMƏSİ

***Dos. Aslanova Emma Əli qızı, Namazova Elminaz Məhərrəm qızı***
***Gəncə Dövlət Universiteti***
***elminaznamazova@mail.ru***

**Xülasə:** *2021-ci il iyunun 15-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması Böyük Qarabağ Zəfərindən sonra böyük bir regiona sülh, sabitlik və inkişaf vəd edən strategiya olaraq həyata vəsiqə qazanmışdır. Şuşa Bəyannaməsinin tarixi Qars müqaviləsinə əsaslanması və məhz Azərbaycanın Milli Qurtuluş Günündə imzalanması dövlətçilik tariximizə əzəmət verən iki mühüm tarixi öz şərəf səltənətinə qovuşdurmuşdur.*